BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Sosial-siyasi elmlər seriyası* 2011

# HÜQUQ

UOT 334.021.35
UOT 332.122
UOT 338

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN TƏDBİRLƏRİN İCMALİ TƏHLİLİ

**A.M.MƏHƏRRƏMOV*, İ.İ.CƏBRAYILOV****

***Bakı Dövlət Universiteti*, Naxçıvan Dövlət Universiteti****

***amagerramov@gmail.com*, c.ikram84@gmail.com****

*Məqalə Naxçıvan Muxtar Respublikasının iqtisadi imkanlarının gücləndirilməsi istiqamətində görülən tədbirlərin icmalı təhlilinə həsr edilmişdir. Burada Azərbaycan Respublikası iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biri olan bölgələrin iqtisadi inkişafı fonunda son illərdə Naxçıvanda aparılan işlərə toxunulmuş, iqtisadi statistikaya müraciət edilmişdir.*

**Açar sözlər:** bölgələrin iqtisadi inkişafı, istehsal müəssisələri, pozitiv dinamika, dövlət proqramı, iqtisadi siyasət

Azərbaycan Respublikası iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biri də bölgələrin iqtisadi inkişafının pozitiv dinamikasına nail olmaqdır. Belə ki, regionların iqtisadi potensialının reallaşdırılması Bakının və digər respublika əhəmiyyətli şəhərlərin sosial yükünü azaltmaq imkanlarını formalaşdırır. Regionların iqtisadi imkanlarının gücləndirilməsi istiqamətində respublika rəhbərliyi tərəfindən xeyli işlər görülmüşdür. Azərbaycan Respublikasında siyasi və ictimai sabitliyi təmin etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin gördüyü ilk işlərdən biri də mərkəzi hakimiyyətin regionlara diqqət və qayğısının artırılması olmuşdur. Müharibənin dayanması ilə Azərbaycan Respublikası hökuməti regionların iqtisadi potensialından səmərəli istifadə etmək üçün əməli tədbirlər görmək imkanı əldə etmişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyev hələ Sovet dövründə Naxçıvana önəm verməkdə idi. Heydər Əliyevin Azərbaycanın siyasi rəhbəri seçilməsi ilə Naxçıvan MSSR-in iqtisadi inkişafında da ciddi dönüş baş vermişdi.

İlk aylardan başlayaraq Azərbaycanın bütün regionları kimi muxtar

respublikanın da iqtisadi və mədəni tərəqqisinin əsası qoyuldu. Azərbaycan rəhbərliyinin göstərişlərinə uyğun olaraq doqquzuncu beşillikdə Naxçıvan MSSR-in xalq təsərrüfatının inkişaf planı işlənib hazırlandı.

İqtisadiyyata əsaslı vəsait qoyuluşu artırıldı. Belə ki, əgər səkkizinci beşilliyin üç ilində – 1966-1968-ci illərdə Naxçıvan Muxtar Respublikanın iqtisadiyyatına cəmi 90 mln. manat (hər il orta hesabla 30,3 mln. manat), kapital qoyulmuşdusa, Heydər Əliyevin rəhbərlik etdiyi ilk iki il ərzində - 1969-1970-ci illərdə bu rəqəm 105 mln manat təşkil etmişdir. Sənaye məhsulunun 1969-1970-ci ildə artımı 83 faiz olmaqla əvvəlki üç ildəkindən 4,1 dəfə çox idi.

Heydər Əliyevin Azərbaycan SSR KP MK-nın birinci katibi seçildiyi ilk üç il ərzində (1970-1973-cü illərdə) muxtar respublikada sənayenin inkişaf sürəti 25,5 faiz təşkil etmiş, sənaye məhsulunun artımının yarıdan çoxu əmək məhsuldarlığının artırılması hesabına əldə edilmişdir. 1973-cü ildə bu göstərici 80 faizə çatmışdı. Həmin dövrdə kənd təsərrüfatının inkişafında da uğurlar əldə edilmişdi. Taxıl istehsalı 30 faiz tütün, 8,9 faiz, tərəvəz 4 dəfə, süd 54 faiz, ət 45 faiz yumurta 80 faiz artmış, taxıl bitkilərinin və 42 heyvandarlığın məhsuldarlığı artmışdı. Sosial problemlərin həllində, əhalinin rifah halının yaxşılaşdırılmasında bir sıra üstünlüklər nəzərə çarpırdı. Həyata keçirilmiş tədbirlər nəticəsində ilk 4 il ərzində səkkizinci beşilliklə müqayisədə 2,2 dəfə çox sənaye məhsulu satılmışdı.

Beşillik ərzində 10 mln şərti konserv bankı, 1000 ton ət, 25 min kubmetr dəmir-beton məmulatı, 150 mln. mineral su butulkası, 54 ton barama, 310 ton qənnadı məmulatı, 1 mln ədəd kərpic və digər sənaye məhsulu istehsalı nəzərdə tutulurdu. VIII beşilliklə müqayisədə tütün istehsalı 60 faiz, üzüm 2,9 dəfə, tərəvəz 3,7 dəfə, süd 2,4 dəfə, yumurta 30 faiz artırılmalı idi.

Bir çox sahələrdə olduğu kimi, həmin illərdə muxtar respublikada tikinti quraşdırma sahəsinin inkişafına xüsusi diqqət yetirilirdi. 1969-1970-ci illərdə bu sahəyə 76 mln manat əsaslı vəsait qoyuldu ki, bu rəqəm əvvəlki iki ildəkindən xeyli çox idi.

Bütövlükdə 1971-1975-ci illərdə əsaslı tikintiyə 210 mln manat, tikinti quraşdırma işlərinə isə 175 mln. manat vəsait ayrılmışdı. Bu isə əvvəlki 46 il (1925-1970-ci illər) ərzində qoyulmuş vəsaitdən dəfələrlə çox idi. 1970-ci illərin ilk üç ili ərzində Naxçıvan MR-də yeni sənaye müəssisələri – alüminium qablar zavodu, tikiş fabriki, dəmir-beton məmulatı zavodunun birinci növbəsi, iki şərab zavodu və s. işə salındı. Doqquzuncu beşilliyin ilk üç ili ərzində 1968-1970-ci illərdəkindən 1,5 dəfə çox sənaye məhsulu, o cümlədən 1,6 dəfə çox xalq istehlak malları istehsal edildi və satıldı. Əlbəttə, bütün bu göstəricilər həm də əhalinin iş yerləri ilə təmin olunması, rifah halının yaxşılaşdırılması demək idi(1, 86).

Muxtar respublikanın iqtisadi inkişafı sahəsində mövcud vəziyyət Heydər Əliyevi daim narahat etdiyindən o, bu vəziyyəti dəyişdirmək üçün bir sıra əməli addımlar atmalı oldu.

Bu baxımdan muxtar respublikanın iqtisadi inkişafı üçün Azərbaycan

KP MK və respublika hökumətinin «Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında» 8 yanvar 1974-cü il tarixli qərarının mühüm əhəmiyyəti oldu.

Bu qərar Heydər Əliyevin muxtar respublikaya, onun sənayesinin, kənd təsərrüfatının inkişafına, naxçıvanlıların rifahının yüksəlməsinə göstərdiyi diqqətin birbaşa təzahürü idi.

1971-ci il oktyabrın 8-də Azərbaycan KP Naxçıvan VPK-nın katibi A.Hüseynov və Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Y.Nəbiyevin imzası ilə Azərbaycan KP MK-ya məktub ünvanlandı. Məktubda göstərilirdi ki, son 10 ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin Naxçıvan MSSR üzrə qəbul etdikləri bir sıra qərarlar sayəsində muxtar respublikanın xalq təsərrüfatının daha da inkişafı, zəhmətkeşlərin rifah halının yüksəldilməsi və mədəni-məişət xidmətlərinin yaxşılaşdırılması üzrə müəyyən işlər görülmüşdür.

Qəbul edilmiş qərarların nəticəsi olaraq Naxçıvan MR-də daha geniş miqyasda mənzil, məktəb, kinoteatr, əhaliyə xidmət obyektləri tikilməyə başlanmışdır.

Kənd təsərrüfatını inkişaf etdirmək məqsədi ilə bir sıra su təsərrüfatı obyektləri, o cümlədən Nehrəm su anbarı, Sədərək, Qaraçuq, Culfa, Yaycı və Dəstə nasos stansiyaları inşa edilmişdi ki, bu da suvarılan torpaqların su ilə təminatının yaxşılaşmasına, üzümçülüyün və tütünçülüyün inkişafına, onların bazasında ixtisaslaşdırılmış sovxozlar yaradılmasına təkan vermişdir.

Heydər Əliyevin rəhbərliyi dövründə muxtar respublikada üzlük materialların istehsalının daha da inkişaf etdirilməsi sahəsində çox böyük işlər görülmüş, üzlük plitələrin buraxılması üzrə yeni müasir müəssisələr yaradılmış, istehsal olunan məhsulun keyfiyyəti yaxşılaşmışdır.

Heydər Əliyev Naxçıvana hər gəlişində muxtar respublikada mənəvi-siyasi şəraitin sağlamlaşdırılması uğrunda, intizamı möhkəmləndirmək, hər cür naqisliyə, xüsusilə rüşvətxorluğa qarşı mübarizənin vacibliyini qeyd edirdi.

Azərbaycan Respublikasında 1990-cı illərdə yaranmış qarışıqlıq dövründə yenə də Naxçıvanın tənəzzülünün qarşısının alınması Heydər Əliyevin Naxçıvana qayıtması nəticəsində baş verdi. 22 iyul 1990-cı ildə Heydər Əliyev Naxçıvana qayıtmışdır. H.Əliyev Naxçıvana gəldikdən sonra Naxçıvan şəhər zəhmətkeşləri ilə görüşmüş, rayon və kəndlərdə olmuş, adamlarla söhbətdə mövcud vəziyyəti təhlil edərək çıxış yollarını göstərmişdi.

1993-cü ilə qədər Heydər Əliyev birbaşa Naxçıvana rəhbərlik etdi. Daha sonra hamıya məlum olduğu kimi, Azərbaycan xalqının istəyi ilə respublika rəhbərliyinə gətirildi. Respublikaya başçılıq etdiyi dövrlərdə də Naxçıvan İqtisadi Rayonu inkişaf etdi və gücləndi. Bu dövr ərzində Naxçıvanın xarici iqtisadi fəaliyyəti olduqca intensivləşdi. Heydər Əliyev İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti ilə Naxçıvanın güclü iqtisadi münasibətlər qurması üçün əlindən gələni etdi.

29 oktyabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikasının Sədərək

rayonu ərazisində Araz çayı üzərində Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasını birləşdirən müvəqqəti körpü istifadəyə verildi. Bu körpünün istifadəyə verilməsi ikitərəfli iqtisadi əlaqələrin intensiv bir xarakter almasına müsbət təsir etdi.

18 noyabr 1991-ci ildə Türkiyə Respublikasının Nəqliyyat Nazirliyinin dəmir yolu, liman və aeroport tikintisi üzrə departamentinin baş direktoru Aytekin Akgün başçılıq etdiyi nümayəndə heyəti Naxçıvana səfərə gəldi. Səfər zamanı nümayəndə heyəti ilə Naxçıvan Muxtar Respublikası hökuməti arasında Araz çayı üzərində körpünün tikilərək istifadəyə verilməsi, həmçinin müvafiq keçid məntəqəsinin yaradılması haqqında razılaşma əldə edilmişdir.

19 yanvar 1992-ci ildə Türkiyə Respublikasının prezidenti S.Dəmirəlin tapşırığı ilə Naxçıvana səfər etmiş nümayəndə heyəti Naxçıvan MR Ali Məclisinin sədri Ümummilli lider Heydər Əliyevlə görüşmüşdür. Görüşdə Naxçıvanla Türkiyə arasında sərhəd nəzarət məntəqəsinin istifadəyə verilməsi məsələləri müzakirə olunmuşdur.

22-25 mart 1992-ci il tarixlərdə Naxçıvan MR Ali Məclisinin sədri Türkiyə Prezidenti T.Özal və Baş nazir S.Dəmirəlin dəvəti ilə Türkiyə Respublikasında rəsmi səfərdə olmuşdur. Keçirilmiş görüşlərdə əsasən regionun siyasi vəziyyəti, ermənilərin Naxçıvana hərbi təcavüzü nəticəsində bölgənin blokada vəziyyətinə düşməsi və s. məsələlər müzakirə olunmuşdur. Səfər çərçivəsində, 24.03.1992-ci il tarixdə tərəflər arasında "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Protokolun imzalanma mərasimində S.Dəmirəl və H.Əliyev çıxış etmişlər. Baş nazir S.Dəmirəl çıxışında Ermənistanın Azərbaycana hərbi təcavüzünü pisləmiş və 1921-ci il tarixli Qars müqaviləsi əsasında Türkiyə Respublikası tərəfindən Naxçıvana lazımi yardım və dəstəyin veriləcəyini bildirmişdir.

28 may 1992-ci ildə Türkiyə Respublikasının Baş naziri S.Dəmirəl Naxçıvana səfər edərək, Naxçıvanla Türkiyə arasında "Ümid" körpüsünün təntənəli açılış mərasimində iştirak etmişdir. Bu körpünün açılışı ikitərəfli iqtisadi əlaqələri bir daha da gücləndirmiş və bu əlaqələrin strateji mahiyyətini ortaya qoymuşdur.

01-05 iyun 1992-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sədri H.Əliyev Türkiyə Respublikasının Baş naziri S.Dəmirəlin dəvəti ilə Türkiyə Respublikasına səfər etmişdir. Səfər zamanı keçirilmiş görüşlərdə tərəflər arasında bağlanmış 24 mart 1992-ci il tarixli əməkdaşlıq protokoluna əsasən, Türkiyə hökuməti tərəfindən ayrılmış kreditlərin verilməsi razılaşdırılmış, həmçinin Türkiyə Respublikasının Naxçıvanda Baş Konsulluğunun açılması məsələsi müzakirə olunmuşdur.

10-14 avqust 1992-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sədri Türkiyə Respublikasının Baş naziri S.Dəmirəlin dəvəti ilə Türkiyəyə səfər etmişdir. Səfər çərçivəsində Naxçıvan MR Ali Məclisinin sədri İqdır vilayətinin yaradılması münasibətilə keçirilən təntənəli mitinqdə iştirak etmiş, daha sonra

Ankaraya yola düşmüşdür.

05 fevral 1993-cü il tarixdə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu fəaliyyətə başlamışdır. Bu göstərilənlər 1990-1993-cü illərdə Naxçıvanın Türkiyə ilə iqtisadi münasibətlərinin dinamik inkişafını göstərən bir xronologiyadır.

1990-1993-cü illər ərzində Naxçıvanla İran İslam Respublikası arasında sağlam iqtisadi münasibətlərin qurulması Heydər Əliyevin fəaliyyətinin əsas prioritetlərindən olmuşdur. Azərbaycan Respublikasının Naxçıvan MR və İİR arasında H.Əliyevin rəhbərliyi ilə ilk iqtisadi sənəd 1992-ci il avqustun 24-də iki qonşu ölkənin müxtəlif sahələrdə (ən əvvəl iqtisadi-ticarət) əməkdaşlığı haqqında imzalanmış protokoldur (2, 460-462).

16 maddədən ibarət olan bu protokolda İİR ilə NMR arasında iqtisadi-ticarət sahəsində əməkdaşlığa xüsusi önəm verilir ki, bu da ermənilər tərəfindən blokadaya alınmış və Azərbaycanın başqa əraziləri ilə əlaqəsi kəsilmiş Naxçıvan və onun iqtisadi çətinliklər çəkən əhalisi üçün çox önəmli idi.

1992-1993-cü illər arasında İran İslam Respublikası ilə NMR arasında iqtisadi məzmunda bir neçə protokol imzalanaraq qüvvəyə minmişdir: İİR və NMR arasında müxtəlif sahələrdə əməkdaşlıq (24.08.1992); "Bonyade Mostəzəfan və Canbazan-e Enqlabe İslami" Fondu ilə NMR arasında iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlıq (24.08.1992); Şərqi Azərbaycan Ostandarlığı (əyaləti) ilə NMR rəhbərliyi arasında əməkdaşlığa aid 8 maddədən ibarət Tehranda imzalanmış protokol. Bu sənədlər sonrakı dövrdə Azərbaycan-İran iqtisadi əməkdaşlığının bünovrəsini qoymuşdu.

H.Əliyev İranla münasibətlərdə iqtisadi-siyasi maraqların yaxınlaşması istiqamətində böyük işlər görürdü. Naxçıvanla İİR arasında iqtisadi əlaqələrin güclənməsi eyni zamanda Azərbaycanın strateji olan bu bölgəsinin Ermənistan Respublikası təcavüzündən qorunması baxımından əhəmiyyətli idi.

1992-ci ilin sonuna doğru Naxçıvan MR Ali məclisinin sədri H.Əliyevin apardığı siyasət nəticəsində nəinki bu bölgə, həmçinin bütünlüklə Azərbaycan İranla münasibətlərini gücləndirdi. İİR-lə əlaqələrin gücləndirilməsi postsovet dövrünün iqtisadi çətinliklərini yaşayan Azərbaycan üçün zəruri idi. Belə olan halda İİR-lə Azərbaycan Respublikası arasında ticarət əlaqələrinin güclənməsi üçün yeni keçid məntəqələri şəbəkəsinin təşkilinə ehtiyac vardı. Belə keçid məntəqələrindən biri də H.Əliyevin bilavasitə fəaliyyəti nəticəsində açılan Şahtaxtı-Poldəşt məntəqəsi idi. Məntəqə 3 dekabr 1992-ci ildə açılmışdı.

1993-2003-cü illər arasında isə Ümummilli Lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasındakı iqtisadi inkişafa artıq ölkə rəhbəri kimi nəzarət etməyə başladı. Naxçıvanda Heydər Əliyev kursunun tətbiqi ilə Cənab Vasif Talıbovun ciddi şəkildə məşğul olması iqtisadi rayonun inkişaf dinamikasını bir qədər də sürətləndirdi.

Cənab İlham Əliyev Prezident seçildikdən sonra regionların iqtisadiyyatının gücləndirilməsi istiqamətində dövlət siyasəti davam etdirilmişdir. Məhz həmin siyasətin nəticəsidir ki, bu gün bir sıra regionlarda fəaliyyət göstərən

istehsal müəssisələri nəinki öz məhsullarını milli bazarlarda reallaşdırırlar, həmçinin ixrac fəaliyyəti ilə də məşğul olurlar.

2004-2008-ci illərdə Respublika rəhbərliyi tərəfindən regionların sosial-iqtisadi inkişafı ilə bağlı birinci dövlət proqramı uğurla həyata keçirilmişdir (5,2). Daha sonra bu siyasəti 2009-2013-cü illəri əhatə edəcək Dövlət Proqramı çərçivəsində davam etdirmək qərarına gəlinmişdir. Bununla bağlı olaraq Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev tərəfindən imzalanmış müvafiq Fərmanda deyilir: "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər)", "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı"nda və regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş digər sənədlərdə nəzərdə tutulmuş tədbirlərin uğurlu icrası ölkənin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuş, qeyri-neft sektorunun davamlı inkişafına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, regionlarda kommunal, xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəlməsinə təkan vermiş, sahibkarlıq mühitinin daha da yaxşılaşmasında, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində və yoxsulluğun azalmasında mühüm rol oynamışdır.

Ötən beş il ərzində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 27,5 mindən çox yeni müəssisə yaradılmış, 547,5 min daimi yeni iş yeri açılmış, yoxsulluğun səviyyəsi 13,2 faizədək azalmışdır. Bu müddətdə ümumi daxili məhsulun real həcmi 2,6 dəfə, qeyri-neft sektorunda məhsul istehsalı 1,8 dəfə artmış, iqtisadiyyatın bütün sahələrində dinamik artım müşahidə edilmiş, o cümlədən sənaye istehsalı 2,5 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 25,2 faiz, əhalinin gəlirləri 4 dəfə artmışdır (9).

Azərbaycan Respublikası regionlarının mövcud potensialından daha səmərəli istifadə etməklə yerlərdə sənaye sahələrinin və kənd təsərrüfatının inkişafını sürətləndirmək, bu işdə sahibkarlara dəstək olmaq, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaqla yoxsulluq probleminin həllinə nail olmaq və ölkəni iqtisadi cəhətdən hərtərəfli inkişaf etdirmək bu gün də dövlətin qarşısında duran əsas vəzifələrdəndir" (7).

Respublikamız üçün xüsusi əhəmiyyətə malik olan regionlardan biri də Naxçıvan iqtisadi rayonudur. Azərbaycan Respublikasının Naxçıvan iqtisadi rayonu Naxçıvan Muxtar Respublikasının ərazisini əhatə etməklə Azərbaycanın əsas hissələrindən kənarda, Türkiyə, İran və Ermənistan əhatəsində anklav ərazidə yerləşir. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan iqtisadi rayonu blokada vəziyyətinə düşərək, hal-hazırda çox əlverişsiz iqtisadi-coğrafi mövqe ilə üzləşmişdir. Naxçıvan iqtisadi rayonu Naxçıvan şəhərindən, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur və Kəngərli inzibati rayonlarından ibarətdir. İqtisadi rayonun ümumi sahəsi 5,5 min kv. km olmaqla ölkə ərazisinin 6%-ni əhatə edir. Relyef xüsusiyyətlərinə görə rayonun ərazisi Zəngəzur və Dərələyəz dağ silsilələrindən və Araz boyu uzanan maili düzənliklərdən

ibarətdir. İqtisadi rayonun ərazisinin 0,5 faizi meşələrlə örtülmüşdür.

İqtisadi rayonun əhalisinin ümumi sayı indi 400 min nəfər olmaqla ölkə əhalisinin ümumi sayının 4,5 %-ni təşkil edir. Naxçıvan iqtisadi rayonunda zəngin təbii ehtiyatlar: molibden, polimetal filizlər, daşduz, dolomit, mərmər, tikinti materialları (travertin, tikinti daşı, gips) yataqları mövcuddur. Eyni zamanda, iqtisadi rayon Badamlı, Sirab, Vayxır və s. kimi 200-dən çox qiymətli mineral su bulaqlarına malikdir. Azərbaycan Respublikasının molibden və dolomit ehtiyatlarının hamısı, mineral su ehtiyatlarının 60 %-i Naxçıvan iqtisadi rayonunun payına düşür.

Naxçıvan iqtisadi rayonu inkişaf etməkdə olan sənaye və çoxsahəli kənd təsərrüfatına malikdir. Ölkənin sənaye məhsulunun 2,6 %-i, kənd təsərrüfatı məhsulunun 3,6%-i bu rayonun payına düşür. İqtisadi rayonun sənaye məhsulunun yarıdan çoxu, sənaye-istehsal işçi heyətinin 35%-ə qədəri Naxçıvan sənaye qovşağında cəmlənmişdir. Elektroenergetika (Araz SES), elektrotexnika (Naxçıvan), alüminium qablar, mebel (Naxçıvan), avtomobil təmiri (Şahbuz) müəssisələri sənayenin aparıcı sahələrini təmsil edir. Tikinti materialları sənayesi üzrə dəmir-beton konstruksiyaları (Naxçıvan, Şərur), üzlük materialları zavodları, qum-çınqıl karxanası fəaliyyət göstərir. Yüngül və yeyinti sənaye sahələri rayonun iqtisadiyyatında mühüm yer tutur. Naxçıvan şəhərində sənaye məhsulunun 7 %-dən çoxu yeyinti sənayesinin, 10 %-i isə yüngül sənayenin payına düşür. İqtisadi rayonun yüngül sənayesi tikiş (Naxçıvan, Culfa), ipəyirmə (Ordubad), xalçaçılıq, trikotaj (Naxçıvan) müəssisələri, yeyinti sənayesi isə konserv (Ordubad, Şərur), tütün-fermentasiya, mineral su doldurulması, balıq zavodu (Naxçıvan, Şahbuz, Şərur) müəssisələri ilə təmsil olunmuşdur.

İqtisadi rayonun aqroiqlim şəraitinin müxtəlifliyi kənd təsərrüfatının müxtəlif istiqamətlər üzrə ixtisaslaşmasına səbəb olmuşdur. Əkinçilik süni suvarma şəraitində inkişaf etdirilir. Əkin sahələrinin suvarılması üçün Araz çayından və onun qolları üzərində yaradılmış su anbarlarından istifadə edilir.

Əkinçiliyin əsas sahələri üzümçülük, tütünçülük, meyvəçilik və taxılçılıqdır. Naxçıvan iqtisadi rayonu ölkənin ikinci tütünçülük rayonudur. İqtisadi rayonda həmçinin şəkər çuğunduru, xına, tərəvəz, gül becərilir. Ətlik-südlük maldarlıq, ətlik-yunluq və südlük qoyunçuluq, arıçılıq heyvandarlığın əsas sahələridir.

Hazırda Naxçıvan iqtisadi rayonunun Azərbaycan Respublikasının digər rayonları ilə dəmiryol əlaqəsi yoxdur. Yeganə əlaqə vasitəsi hava yolu və İran ərazisi vasitəsi ilə avtomobil yoludur. Naxçıvan Muxtar Respublikasının enerji təchizatı da İran və Türkiyə vasitəsilə həyata keçirilir.

Naxçıvan Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olmaqla geniş sosial-mədəni infrastruktura malikdir. Muxtar respublikanın Milli Elmlər Akademiyasının elmi idarələri, ümumtəhsil, peşə, musiqi məktəbləri, mədəni-maarif, səhiyyə ocaqları və muzeylərlə yanaşı, çoxlu sayda tarixi abidələri mövcuddur (5).

Dövlətin siyasi rəhbərliyinin birbaşa diqqət və qayğısı nəticəsində Naxçıvan Muxtar Respublikasının iqtisadi gücü son dövrlərdə xeyli artmışdır.

Son 15 il ərzində Naxçıvan Muxtar Respublikasında ixracın həcmi 86 dəfə artıb. 2009-cu ildə ilk dəfə olaraq, xarici ticarətdə müsbət saldo yaranıb. Bu barədə muxtar respublikanın Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumatda bildirilir ki, 2009-cu il ərzində Naxçıvandan 112 mln. 287,2 min dollar dəyərində məhsul ixrac olunub. Muxtar respublikaya idxal olunan məhsulların dəyəri isə 107 mln. 759 min dollar təşkil edib. 1995-ci ildə xarici ölkələrdən idxal olunan məhsulların 90 faizini ərzaq və kənd təsərrüfatı məhsulları təşkil etdiyi halda, ötən il bu göstərici 28 faizə qədər azalıb.

Komitənin məlumatında həmçinin qeyd olunur ki, cari ilin yanvar-noyabr aylarında ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 24 dəfə, adambaşına düşən ümumi daxili məhsulun həcmi 20 dəfə, sənaye məhsulunun həcmi 32 dəfə, əsas kapitala yönəldilən investisiyalar 152 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 6 dəfə, nəqliyyat sektorunda yük daşınması 15 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 78 dəfə, pərakəndə əmtəə dövriyyəsi 15 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 25 dəfə, dövlət büdcəsinin gəlirləri 24 dəfə, əhalinin gəlirləri 29 dəfə, adambaşına düşən gəlirlər 24 dəfə, orta aylıq əmək haqqı isə 19 dəfə artıb. Hazırda muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrində 12 min 129 işçi çalışır ki, bu göstərici də 1 yanvar, 1996-ci ildəki müvafiq göstəricini 6 dəfə üstələyir.

Son 10 ildə sahibkarlara 100 milyon manata yaxın kreditlər verilib. Bu dəstəyin nəticəsi olaraq, hazırda muxtar respublikada 108 növdə, 319 çeşiddə ərzaq, 179 növdə, 432 çeşiddə qeyri-ərzaq olmaqla 750 çeşiddən artıq məhsul istehsal olunur. 1995-2010 illərdə muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən investisiyanın həcmi 1 mlrd. 950 mln. manat təşkil edib. Ötən 15 il ərzində muxtar respublikada mənzil-kommunal təsərrüfatı sahəsində 593 obyekt, 153 nasos stansiyası, 353 subartezian quyusu, 119 körpü, rabitə və informasiya texnologiyaları sahəsində 260 obyekt və qurğu, 2095 müxtəlifgüclü transformator yarımstansiyası, 45 məişət evi və ticarət mərkəzi, 231 elm və təhsil mərkəzi, 272 mədəniyyət və 173 səhiyyə müəssisəsi, 33 idman obyekti, su, kanalizasiya və drenaj xətləri, o cümlədən əlil, məcburi köçkün, şəhid ailələri, təbii fəlakətlərdən zərər çəkənlər üçün 457 fərdi ev, 3 min 392 istehsal, xidmət və digər infrastruktur obyektləri tikilərək və ya təmir olunaraq istifadəyə verilib. Son 15 il ərzində muxtar respublikada 2926 kilometr uzunluğunda yeni avtomobil yolları salınıb, 5 yeni avtovağzal kompleksi inşa edilib, 119 körpü tikilib və ya təmir olunub. Tək 2010-cu ilin yanvar-noyabr aylarında 483,3 mln. kvt-saat elektrik enerjisi istehsal edilib ki, bu da 1995-ci ildəki müvafiq göstəricidən 4 dəfə yüksəkdir (3, 4).

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında həyata keçirilən tədbirlərin uğurlu nəticələri yerli ictimaiyyət tərəfindən müzakirə edilmişdir. 2010-cu ilin yekunları ilə bağlı olaraq keçirilən tədbirlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Cənab Vasif Talıbovun dövlət siyasətinin

icrası istiqamətində işlək bir mexanizm formalaşdırdığını ortaya qoyur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun fəaliyyəti yüksək qiymətləndirilmişdir. Prezident İlham Əliyev də çıxışlarının birində bu amili xüsusi vurğulayaraq deyib: "Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir". Dövlət başçımız başqa bir çıxışında isə bununla bağlı belə deyib: "Mən Naxçıvanın rəhbəri Vasif Talıbovun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Onun fəaliyyəti nəticəsində burada bu işlər görülür və o da sizə arxalanır. Öz fəaliyyəti ilə ulu öndər Heydər Əliyevin tutduğu yolu Naxçıvanda davam etdirir. Bu, çox böyük nailiyyətdir" (3, 4).

2010-cu il Muxtar Respublikada nəqliyyat-yol kompleksi sahəsində bir sıra yeniliklərlə yadda qalıb. 2010-cu ilin noyabr ayında şəhərdaxili sərnişindaşımanı daha da yaxşılaşdırmaq üçün Naxçıvan şəhərinə müasir, iritutumlu Çin istehsalı olan 14 ədəd yeni KİNG-LONG markalı avtobus alınıb gətirilib. Sərnişindaşıma xidmətinin səviyyəsini yüksəltmək üçün Ordubad şəhərində müasir standartlara uyğun yeni avtovağzal binası istifadəyə verilib.

"Naxçıvan Dəmir Yolları" MMC üzrə 2010-cu il ərzində 326 vaqon–16 min 451 ton yük daşınıb və daşımadan daxil olan 1529 manat vəsaitdən 290 vaqon– 14 min 134 ton yükün daşıma xərci 1443 manat mərkəzləşdirilmiş qaydada İnfrastruktur Departamenti tərəfindən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Maliyyə Xidmətinə ödənilib.

Əhalinin rahatlığı üçün hər bir şəraitlə əhatə olunmuş Naxçıvan Beynəlxalq Hava Limanında 2010-cu il ərzində bir sıra mühüm tədbirlər həyata keçirilib.

Culfa rayonunda 2010-cu ildə bütün maliyyə mənbələrindən əsas kapitala 26 milyon 45 min 900 manat və yaxud 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 17 faiz çox investisiya yönəldilib (8).

Naxçıvan MR-də 2010-cu ildə əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə 18,6 km yeni xətt çəkilmiş, 10 km-i təmir olunmuş və 0,8 km kaptaj tikilmişdir. Suvarma mövsümünün müvəffəqiyyətlə keçirilməsi üçün sututarlara Araz su anbarı istisna olmaqla 299,9 mln. kbm su yığılmışdır.

2010-cu ildə xidmətdə Daşınmaz Əmlakın Dövlət Reyestrinin bütün bölmələri üzrə 3529 əmlak üzərində yaranan hüquqların qeydiyyatı aparılmışdır. O cümlədən, mənzillər bölməsi üzrə 852, fərdi yaşayış evi bölməsi üzrə 1410, torpaq sahəsi bölməsi üzrə 1130, qeyri-yaşayış binası bölməsi üzrə 43, qeyri-yaşayış sahəsi bölməsi üzrə 66, əmlak kompleksi bölməsi üzrə 23, çoxmərtəbəli yaşayış binaları bölməsi üzrə 4 və qurğular bölməsi üzrə 1 əmlaka dair hüquqların dövlət qeydiyyatı aparılmışdır. 2010-cu ildə hüquq sahiblərinə dövlət reyestrində qeydiyyata alınmış hüquqlar və onların üzərində məhdudiyyətin olub-olmaması barədə 2627 arayış verilmişdir.

"Naxçıvan Kredit" Bokt MMC tərəfindən Naxçıvan Muxtar Respublika-

sı Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamla təsdiq etdiyi "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na uyğun olaraq mal-qaranın alınması və saxlanması üçün 1601 nəfərə 2063850 manat, kartof əkini üçün 1289 nəfərə 1147700 manat, kiçik biznes üçün 199 nəfərə 304700 manat, yazlıq əkin üçün 637 nəfərə 617700 manat, payızlıq taxıl əkini üçün 2173 nəfərə 2191200 manat, arı ailəsinin alınması və saxlanılması üçün 234 nəfərə 241800 manat, ümumilikdə muxtar respublika üzrə 6120 nəfərə 6566950 manat kredit verilmişdir. Kreditin 2185850 manatı Dünya Bankının vəsaiti, 4381100 manatı isə "Naxçıvan Kredit" Bokt MMC-nin hesabına ödənilmişdir. Dünya Bankı ilə Azərbaycan hökuməti arasında Kənd İnvestisiya layihəsinin əlavə maliyyələşməsi ilə əlaqədar imzalanmış yeni müqavilə əsasında Naxçıvan Regional Əməliyyatlar Ofisi ötən il muxtar respublikanın 6 rayonunu əhatə etməklə 25 kənddə müxtəlif layihələr həyata keçirmişdir. 10 kənddə içməli və suvarma suyuna olan tələbatın ödənilməsi məqsədilə artezian quyuları qazılmış, 3 kənddə isə kaptaj yolu ilə su xətləri çəkilmişdir (8).

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatlar iqtisadiyyatın bütün sahələrində özünü göstərmişdir. Bu islahatlar nəticəsində iqtisadi rayonun potensialından səmərəli şəkildə istifadə edilmişdir. Naxçıvan islahat proqramlarında və dövlət layihələrində önəmli bir yerdə bərqərar olmuşdur. Aparılan islahat proqramlarının uğurlu nəticələri özünü 2011-ci ilin ilk göstəricilərində biruzə vermişdir. 2011-ci ilin ilk rübündə Naxçıvan MR-də 585 milyon 663 min manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 50,4 faiz çoxdur. ÜDM-də özəl sektorun payı 86,4 faizi keçmişdir (9).

Beləliklə, onu demək olar ki, Azərbaycan Respublikaı iqtisadi siyasətinin regionlarla bağlı dövlət proqramlarının icrası zamanı Naxçıvan Muxtar Respublikasının təsərrüfatının müasir ərazi strukturunun formalaşmasında aşağıdakı meyllər müşahidə olunur:

- geniş səpələnmiş özəl təsərrüfatların yaratmağa başladığı yeni ərazi strukturunun formalaşdırılmasında dövlətin tənzimləmə rolunun artması;
- müasir blokada şəraiti nəzərə alınaraq təsərrüfatın daha geniş istehsal və xidmət tərkibində təmsil olunması;
- «idxalı əvəzetmə siyasətinin» dərinləşdirilməsi məqsədilə daxili istehsalın və əlaqələrin genişləndirilməsi;
- ilk növbədə nəqliyyat yollarına yaxın olan, az xərclər tələb edən və tez mənimsənilən təbii ehtiyatların istifadəyə cəlb edilməsi;
- əlverişli təbii şəraiti olan, inkişaf etdirilmiş təsərrüfat sahələri və şəhər məntəqələri cəmləşən dağətəyi zolaq boyu Muxtar Respublikanın baş iqtisadi inkişaf oxunun formalaşdırılması;
- qonşu Türkiyənin maliyyə imkanlarından və yeni texnologiyasından istifadə etmək məqsədilə müxtəlif inteqrasiya əlaqələrinin genişləndirilməsi və s.

Bütün bu qeyd edilənlər onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı birbaşa dövlət rəhbərliyinin diqqət mərkəzindədir.

## ƏDƏBİYYAT


1. Əhmədov N., Nuriyev Ə.X. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 312 s.
2. Heydər Əliyev və şərq (4-cü kitab). Bakı: Çaşıoğlu, 2005, 478 s.
3. Mazlum A.Naxçıvan iqtisadiyyatı son 15 ildə xeyli güclənib. "Zaman" qəzeti, 2010, 21 dekabr, № 149, 8s.
4. Məmmədov M. Naxçıvan: böyük quruculuğun sadə fəlsəfəsi. "525-ci qəzet" 2011, 18 yanvar, № 9 (3321).
5. Naxçıvan iqtisadi rayonu http://catalog.az/az/10_regions/reg_10.php
6. Regionların İqtisadi və Sosial İnkişafı Üzrə Dövlət Proqramına Dair Konfrans. Bakı, 2006, 17 fevral, 3 s.
7. http://w1.economy.gov.az/index.php?option=com_content&view=article&id=339&Itemid=77
8. http://www.nakhchivan.az/portal-1/news/fevral-2011/news4.html
9. http://www.azerbaijan.az/portal/Economy/newWorks/newWorks_01_a.html
10. http://www.salamnews.org/az/news/read/62230/naxccedilivanin-sahibkarliga-koumlmek-fondu-ish-adamlarina-7-milyon-738-min-manat-kredit-verib/
11. http://www.bizimyol.az/index.php?mod=news&act=view&nid=52202


## АНАЛИЗ МЕРОПРИЯТИЙ ПО УКРЕПЛЕНИЮ ЭКОНОМИЧЕСКИХ ПОТЕНЦИАЛОВ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ


**А.М.МАГЕРРАМОВ**
**И.И.ДЖАБРАИЛОВ**


### РЕЗЮМЕ


В статье исследуются меры по укреплению экономических возможностей Нахчыванской Автономной Республики. Отмечается важное значение данных мероприятий как части экономической политики Азербайджанской Республики. Здесь также изучается проводимая в последние годы работа на фоне регионального экономического развития, о чем свидетельствует экономическая статистика.



**Ключевые слова:** региональное экономическое развитие, производство, положительная динамика, государственная программа

## ANALYSIS OF THE MEASURES ON STRENGTHENING THE ECONOMICAL OPPORTUNITIES OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

**A.M.MAHARRAMOV**

**SUMMARY**

The paper studies the review of measures to strengthen the economic opportunities of the Nakhchivan Autonomous Republic. The role of the taken measures is marked as a part of the economic policy of the Azerbaijan Republic. The work against the background of the regional economic development in recent years is also elucidated in the article.

**Key words:** regional economic development, production, positive dynamics, the state program